# DƏMİRAĞACI ƏZƏMƏTİ

**Lənkərandan üzü yuxarı Lerikə sarı, vadi boyunca qalxanda Qıjov dağ çayının sahilləri boyu sıx meşəliklər elə bil ki, göyü yerlə birləşdirən tanrı bağları kimi uzanıb gedir. Bu meşələrdə yaşı yüzilliklərlə ölçülən dəmirağacı nil, azat, palıd... təbiət abidələri seyr edənlərə az qala sarsıdıcı təsir göstərir. Bu qədim ağacların kök qırışları elə bil ki, yaşadığı əsrlərin tarixini özünə çəkib. Ağac dilində, təbiət dilində nələrisə danışır, bircə qalır bu abidələrin dilini bilmək, əgər bu dili bilsən, onda bu ağacların nələrə şahidlik etdiyini də aydın başa düşərsən.**



Şəddat Cəfərov haqqında danışanda onun həyat yolunun ayrı-ayrı epizodlarını yada salıb yalnız dərin düşüncə ilə başa düşülən məqamlarına nəzər salanda, elə həmin Lənkəran meşələrində gördüyüm abidə ağacların əzəmətli kökləri gözlərimin önündə canlanır. Necə həmin ağaclara uzun ömürlülük bəxş edən köklər yerin dərinliklərinə işləyir, ordan şirə çəkir, budaqlarına ötürür və bu ağacları əsrlərin yaşıdına çevirir. Eləcə də buna bənzər insanlar var. Onların tükənməyən enerjisi, gücü yaşadıqları ömür xalq arasındakı nüfuz məhz öz kökləri ilə bağlıdır. Yəni camaat arasında, xalq arasında onların böyük hörməti, ehtiramı, onların mənəvi həyatını təmin edir. Onların sağlamlığını qoruyan sehrli iksirə çevrilir.

Nəhəng dünya dövlətləri həm sərhəd, həm də əhali baxımından böyük ölkələrlə müqayisədə Azərbaycan kiçik ölkədir. Hətta dünyanın böyük siyasi xəritəsində bizim Şimali Azərbaycan 10 milyonluq əhalisi və ərazisi ilə birgə kiçik bir nöktə kimi işarələnir. Amma buna baxmayaraq Azərbaycan dünyaya günəş kimi işıq saçan böyük fikir adamları bəxş edib. Çünki həmin böyük fikir adamlarının hər biri bütün varlıqları ilə Vətənə bağlı olublar. Gücü Vətəndən alıblar.

İndi Şəddat Cəfərovun xalq arasında böyük hörmət və nüfuzunun kökünü, daha doğrusu səbəbini onun məhz Vətənə bağlılığında görməliyik.

Azərbaycanda yüksək ixtisaslı poliqrafçı demək olar ki, olmadığı bir zamanda Şəddat Cəfərov Moskva poliqrafiya ənənələrini ilkin mənimsəyən mütəxəssislərdən biri kimi meydana çıxıb. Azərbaycanın son 40 illik poliqrafiya tarixini Şəddat Cəfərovsuz təsəvvür etmək mümkün deyil. Bəlkə onun böyük hörmət və nüfuz sahibi olmasının bir əsas səbəbi də budur. Seçdiyi nadir ixtisas sahəsində fərqlənən simadır. Ancaq insan təkcə ixtisası və sənəti ilə sonsuz hörmət və nüfuza sahib ola bilməzdi. Deməli, bunun başqa amillərlə də bağlılığı var. Bu da hər kəsin şəxsiyyəti ilə bağlıdır. Əgər sənin insanlıq yolun parlaq və aydındırsa bunu başqaları da görəcək və etiraf edəcək. Şəddat Cəfərov məhdud maddi imkanları müqabilində nəşriyyatlara üz tutan hər bir müəllifə açıq qapı bəxş edib. İnsanlar onun yanına öz simsarı kimi, doğması kimi gedir.

Düşünürəm ki, bunlar da bəs etməzdi, əgər Şəddat Cəfərov özü dostları sonsuz bir istək, könüldən gələn duyğularla sevməsəydi, onda onun böyük insan obrazı da illərin gətirdiyi zaman dumanlıqları arxasında itib gedərdi. Şəddat Cəfərov dostlarına son dərəcə sadiq, dostluq yolunda hər cür cəfaya dözən bir insandır. Maraqlıdır ki, elə yaşının bu çağında da bir dostundan xəbər çıxmayanda zəng eləyir, hal-əhval tutur. Bəlkə bir çətinliyinin olub-olmadığını da soruşur. Başqa cür insanın təbiətinin zənginliyi, humanizmi, yüksək insani dəyərləri necə üzə çıxa bilərdi.

Şəddat müəllim bizim "Kredo" qəzetinin redaksiya heyyətinin üzvüdür. Hər vaxt bizə mənəvi dayaq olur, hətta çətinliklərimizi asan edə biləcək yollar da göstərir.

Mən bilirəm ki, Şəddat Cəfərov bu münasibəti "Söz" jurnalı ilə də yaradıcılıq əlaqələri ilə nəşriyyat dəstəyi göstərmək baxımından qoruyub saxlayır. Hətta "Söz" jurnalının tarixini Sevda Əlibəylinin yazılarından öyrəndikcə məndə belə bir fikir formalaşıb ki, Şəddat Cəfərov "Söz" jurnalı ilə lap bünövrədən bağlıdır. Hətta "Söz" jurnalının yaradıcısı Şəkər Aslanın zamanından bəri davam edən bu əlaqələr bu gün də qırılmayıb.

"Söz" jurnalının növbəti sayını vərəqləyirəm. Burada iki yazının Şəddat Cəfərovun müxtəlif tərəflərdən təbiətinə işıq tutulur.

"Söz" jurnalının baş redaktoru yazıçı-publisist Sevda Əlibəyli "Ömür bitər yol bitməz" adlı çox dəyərli publisist yazısını müxtəlif rayonlarda, xüsusən Cənub bölgəsində rəhbər vəzifələrdə işləmiş Sərhat Məmmədovun həyat yoluna həsr edib. Ancaq onun qələmə aldığı yazının baş qəhrəmanın obrazına nüfuz etmək üçün seçdiyi epizod yenə Şəddat Cəfərovla bağlıdır.

Bəlkə də, insanın ən üstün keyfiyyətləri daha çox iki məqamda üzə çıxır. Bir sevincli xəbər eşidəndə, bir də kədərin ağrı-acısını gətirən xəbər ona çatanda.

Təəssüf ki, biz bu yazıda böyük kədərin gəlişi ilə tanış oluruq. Şəddat Cəfərovun uşaqlıq və gənclik dostu Sərhat Məmmədovun dünyadan getməsi xəbərini Şəddat müəllim sarsıdıcı bir itki kimi qarşılayır. Müəllif Sevda Əlibəyli bu məqamları psixoloji ustalıqla müşahidə edir. Və Şəddat Cəfərovun yaşadığı hissləri reallığı ilə yazıya gətirir: "Müdrik xarekterilə insanda hər zaman xoş əhval-ruhiyyə yaradan Respublikanın ilk poliqrafçı alimi Şəddat Cəfərov bu gözlənilməz xəbərə - Sərhad Məmmədovun dünyasını dəyişməsinə elə sarsılmışdı, göz yaşlarını saxlaya bilmirdi. 85 yaşlı bir insanın dünyasını dəyişməsinə bunca vaysınması bəlkə də çoxlarına qəribə gələr. Amma onun bu hissləri anlaşılandı. Sərhad Məmmədov gedişiylə Şəddat Cəfərovun uşaqlığını, gəncliyini, elə ahıl çağlarını da özüylə apardı... Şəddat 1940-cı ildə Bakıda doğulsa da, uşaqlığı ata-baba yurdu Lənkəranın Gərmətük kəndində keçib. Böyük Vətən müharibəsi dövründə atası cəbhəyə getdiyindən ailə kəndə köçüb, 1946- cı ildə yenidən Bakıya qayıdıblar. Sərhad müəllim də o acılı-şirinli illəri tez-tez yada salardı. Kolxozda işləyən analarına yemək aparmalarını, Şəddatın diribaş, hazırcavab, şən uşaq olmasını xoş xatirələrlə anardı. Söylərdi ki, Şəddatgil Bakıya köçəndə hamımız ağladıq. Yay tətilini, onların kəndə gəlməsini səbirsizliklə gözlərdik. Tələbəlik illərində onlarda qaldığı illəri, anası Nəsibə xalanın ona analıq qayğısını da minnətdarlıqla xatırlayardı. Şəddat Cəfərovun "Ulyanovskaya Pravda" nəşriyyatında baş direktor işlədiyi dövrdə dostu doktor Oktayla Ulyanovska gedişini, Şəddatın xidməti maşını ilə onları aereportda qarşılamasından tutmuş Azərbaycana qayıdanadək qonaqpərvərliyini bir eloğlu iftixarla danışardı". Müəllif ustalıqla iki obrazın mənən bir-birinə qovuşuq həyatının artıq uzaq keçmişdə qalmış məqamlarına işıq salır. Yazıdan da göründüyü kimi məlum olur ki, Şəddat müəllimin dostu Sərhat Məmmədov 85 yaşında dünyasını dəyişib. Müəllif doğru deyir, kifayət qədər uzun ömür yaşayıb dünyasını dəyişmiş insan üçün belə dərin, vaysıntı hissləri hardan, nədən qaynaqlana bilər. Artıq oxucuya təqdim etdiyimiz hissədən məlum olduğu kimi Şəddat Cəfərov dostunun ölümünü təkcə bir insanın ölümü kimi qarşılamır. Bunu həm də öz həyatının ondan ayrılıb əbədiyyətə getmiş bir hissəsi kimi qarşılayır. Həqiqətən çətindir, bütün ruhunla, varlığınla bağlı olduğun insanın lap hansı yaşda olur-olsun səndən qopub getməsini necə soyuqqanlılıqla qarşılaya bilərsən.

Həyat yolu həmişə çətin və mürəkkəbdir. Bu yolda ən müxtəlif insanlarla qarşılaşırsan. Elələri olur ki, sənə pislik edir, yara vurur, o yaranın göynədiyi məqamlarda həmin şəxs yaddaşında özünü göstərir, əlbəttə, təəssüf hissi ilə. Elələri də olur ki, nə yaxşı, nə də pis əməli ilə bir yadında qalmır, yaddaşdan silinib gedir. Amma Sərhat Məmmədov Sevda Əlibəylinin qeyd etdiyi kimi Şəddat müəllimin yaddaşından heç vaxt silinmir. Çünki Şədat müəllim onunla birgə uşaqlığın və gəncliyin ən ecazkar günlərini bir yerdə keçiriblər. Elə bu səbəbdən də şirin bir xatirə kimi təkcə xatirələrdə yox, hətta yuxularda da onunla birgə o qaynar illərə qayıtmaq mümkün olur. Doğma Lənkəran, Gərmətük kəndi, paytaxta gələn yollar. Sərhadın Bakıda onların evində qalması... bütün bunların hamısı təsirli roman səhifəsi kimi düşüncədə çox təsirli təəssürat yaradır. Onların dostluğu bütün ömürləri boyu davam edib. Sərhat dostunu görmək üçün Ulyanovski şəhərinə gedir. Burada Şəddatın necə böyük hörmət sahibi olduğunu görür və onunla dostluqdan qürur duyur. Şəddat Cəfərovun qonaqpərvərliyinin ayrı bir aləm olduğunu, onun uzaq Ulyanovskda Azərbaycanın necə təmsilçisi olduğunu görmək həqiqətən qürurverici idi.

Təbiidir ki, Şəddat Cəfərov da əziz dostunu heç vaxt unutmur. Ayrı-ayrı rayonlara dəyişdikcə bir mənəvi ehtiyac kimi onun arxasınca gedir. Onu işlədiyi yerdə müşahidə edir, yeri gəldikcə mənəvi dəstəyini də əsirgəmir.

Sevda Əlibəyli "Söz" jurnalında dərc olunmuş yazısında Sərhat Məmmədovun obrazını həyati cizgilərlə vermək üçün Şəddat Cəfərovun onun haqqındakı təəssüratını da yazıya gətirir: "Şəddat müəllimdə Sərhad müəllimin yaxşı dost, vicdanlı, son dərəcə pak, təmiz dövlət adamı olduğunu vurğuladı. Söylədi ki, Sərhad Məmmədovun Yardımlı rayonunda I katib işlədiyi illər idi. Mən də "Yeni kitab" mətbəəsində direktor idim. İstirahət günlərindən birində eloğlumu görmək üçün Yardımlıya getdim. Həmin gün Nazirlər Kabinetindən bir nümayəndə də hansı işdən ötrüsə Yardımlıya gəlmişdi. Sərhad müəllim bizi İranla sərhəd olan kəndlərə apardı. Xeyli sərhədçi bizi müşayiət edirdi. Düz günorta vaxtı idi. Şübhəsiz, hamımız acmışdıq. Sərhad müəllimə yanaşıb harda yemək yeyəcəyimizi soruşdum.

-Evə gedərik, Şəfiqə xanımın bişirdiklərindən yeyərik, - dedi.

-Bu qədər adamı evə necə apararsan? - dedim.

-Bəs nə edim? - soruşdu.

-Burdakılardan birini çağır, tapşırıq ver, - söylədim.

Əvvəl bir az duruxdu. Burda neyləmək olar? - düşündü. Sonra kimisə çağırıb tapşırıq verdi. O şəxs birinci katibin sözünə bənd imiş kimi cəld maşına oturub harasa getdi. 10-15 dəqiqə keçməmiş biz də ora getdik. Gördük çay kənarındakı meşəlikdə qoyun kəsilib, şişlərə kabab çəkilib və.s. Dağların qoynunda həmin gün unudulmaz bir gün yaşadıq... Ayrılanda Sərhad müəllim gülə-gülə soruşdu ki, belə təşkilatçılığı nə yaxşı bilirsən?!". Şəddat Cəfərov da elə Sevda Əlibəyli də Sərhat Məmmədovun tale yolunu xatırlayarkən insanın ucalığını, mənəvi böyüklüyünü, daxili zənginliyini birinci şərt kimi diqqətdə saxlayırlar.

Şəddat Cəfərovun dostu Sərhat Məmmədov həyatı boyu Şəddata güvəncli olduğunu etiraf edib. Onun varlığını özünün gücü kimi qəbul edib. Məsləhətlərindən fayda gördüyünü etiraf etməkdən çəkinməyib. Ötən il Şəddat müəllimin 80 illik yubileyi oldu. Onun haqqında filmlər çəkildi, verlişlər hazırlandı. Bu yerdə də Şəddat Cəfərov dostu Sərhat Məmmədovu unutmadı. Bu məqama da Sevda Əlibəyli yazısında xüsusi diqqət ayırır: "Şəddat Cəfərovun 80 illiyi münasibətilə film çəkilir. Filmdə Ziyad Səmədzadə, Sabir Rüstəmxanlı, Hacı Mehman Fərzullayev, Şakir Acalov, Əli Rza Xələfli, Fatma Həsənqızı, bu sətirlərin müəllifi və başqaları danışırlar. Yubilyar çəkiliş qrupunu Sərhad Məmmədovu çəkmək üçün ata-baba yurdu Gərmətükə də göndərmişdi. İndi sevinirik ki, bu çəkiliş vaxtında baş tutdu". İndi film tarixə qovuşub mədəniyyət tariximizin maraqlı bir səhifəsi kimi zaman-zaman baxılacaq, müəyyən təəsüratlar doğuracaq, bu barədə yazılacaq. Amma Sərhat Məmmədov əbədiyyətə qovuşub. İndi Şəddat Cəfərov üçün bu bir təskinlikdir. Nə yaxşı vaxtında dostunun çıxışını özü haqqında filmdə əbədiləşdirilməsi üçün səyini əsirgəməyib.

Yazının əvvəlində köklü ağaclardan danışmışdıq. Hər bir insanın böyüklüyü, əzəməti onun Vətəndəki, xalq arasındakı kökləri ilə bağlıdır. Mən Şəddat Cəfərovu Lənkəran meşələrində gördüyüm dəmirağacına çox bənzədirəm; əzəməti, yaşamaq ehtirası, həyat enerjisi ilə...

*Əli Rza XƏLƏFLİ*
*Ceyhun ZALLI*
*05.04.2021*